**UOT 94**
**https://doi.org/10.59849/2218-4783.2025.2.20**

**KÖNÜL ALLAHVERDİ**

# BİZANS İMPERATORU I İRAKLİNİN ŞƏRQ SİYASƏTİ

*610-cu ildə hakimiyyətə gələn I İrakliyə iqtisadi və siyasi nöqteyi-nəzərdən çökmüş bir Bizans imperiyası qalmışdı. Dövlətin içinə düşdüyü bütün bu çətinlikləri aradan qaldırmaq üçün İrakli hərbi və idarə sistemində köklü dəyişiklər etdi. Onun həyata keçirdiyi islahatları və hərbi yürüşləri Bizans, ərəb və erməni, eləcə də alban mənbələri tədqiq etməyə şərait yaradır. I İrakli özünə qədər heç bir imperatorun etmədiyi hərbi taktikaya əl atdı. Özünün də şəxsən iştirakı ilə Sasani dövlətinə Azərbaycan torpaqları üzərindən hücum etdi. Qərbi Türk imperiyası ilə münasibətləri bərpa edən İrakli hərbi yardım alaraq Sasani dövlətinə qalib gəlməyə müvəffəq oldu. Bu məqalənin məqsədi VII əsrdə Bizans imperiyasının yaşadığı çətinliklərdən imperator İraklinin çıxmaq cəhdləri və bunun üçün apardığı xarici siyasət və hərbi səfərləri araşdırmaqdır. Burada İraklinin Azərbaycana olan hərbi yürüşlərini tədqiq etməklə bu torpaqların Bizans və Türk Xaqanlığı üçün əhəmiyyəti göstərilmişdir.*

**Açar sözlər:** *imperator I İrakli, II Xosrov Pərviz, Azərbaycan, Qərbi Türk Xaqanlığı.*

**Giriş.** Bizans imperatoru Mavriki (582-602) Sasani dövlətində 590-591-ci illərdə baş verən qiyamdan məharətlə istifadə edərək taxtdan salınmış II Xosrovu (591-628) öz rəqiblərinə qalib gəlməyə kömək etmişdi. Bizans ordusunun köməyi ilə Sasani taxtına yenidən sahib olan II Xosrov imperator Mavriki arasında sülh müqaviləsi imzalandı. Müqaviləyə əsasən Bizans əvvəlki müharibələrdə itirmiş olduğu torpaqlar və qalaları geri alırdı.

İmperator Mavrikinin Şərq siyasəti Balkan yarımadasında öz əksinə tapmamışdı. Avar Xaqanlığına qarşı aparılan hərbi və siyasi fəaliyyətlərin iflasa uğraması, hərbi əməliyyatlara ayrılan maliyyə vəsaitinin azaldılması ordu tərəfindən narazılıqla qarşılandı. Bütün bunlar orduda 602-ci ildə qiyama səbəb oldu. Əsgərlər Konstantinopolu ələ keçirdib Fokanı (602-610) hakimiyyətə gətirdilər. İmperator Mavriki və ailəsi edam edildi. Xalqın üsyanı nəticəsində hakimiyyətə gəlməsinə baxmayaraq, Foka xalq kütlələrinin maraqlarına uyğun heç bir islahatlar keçirmir, əyalət zadəganları ilə düşmənçiliyi isə onu terrora əl atmasına təhrik edirdi. Sosial, etnik və dini qarşıdurmalar Bizans dövlətində daxili vəziyyəti pisləşdirirdi. Bu vəziyyətdən istifadə edən Sasani dövləti Bizans hüdudlarına hücum etdi.

610-cu ildə ölkə daxilindəki narazılıqlar vətəndaş müharibəsinə səbəb oldu. Bundan müxalifətdə olan əyalət zadəganları istifadə etdilər. Şimali Afrika ekzarxının (VI-VII əslərdə Bizans imperiyasında ərazi vahidi) oğlu İrakli ona sadiq hərbi dəniz gəmiləri ilə birlikdə Konstantinopola yürüş etdi. 610-cu ilin oktyabr ayında əhalinin də köməyi ilə I İrakli (610-641) Fokanı devirərək Bizans taxtına çıxdı. Beləliklə, Bizans imperiyasında İrakli sülaləsinin (610-711) əsası qoyulmuş oldu.

**I İraklinin hakimiyyətə gəlməsi və Sasani işğalları.** Tarixçi Çarls Dil öz əsərində Bizans tarixində VII yüzilliyi en qaranlıq dövrlərdən biri hesab edir. İmperiyanın mövcudluğunun belə təhdid altında olduğunu qeyd edirdi [4, s. 49]. Tarixçi G.Ostroqorski öz növbəsində I İraklinin iqtidarı ələ aldığında ölkənin xaraba vəziyyətində olduğunu qeyd edirdi: "*Ölkə iqtisadi baxımdan məhv olmuşdu. Köhnəlmiş idarə mexanizmi dayanmışdı. Muzdlu əsgərə əsaslanan ordu təşkilatı artıq işləmirdi. Balkan yarımadasında avarlar və slavyanlar, Anadolunun qəlbinə isə Sasanilər girmişdi. Dövləti süqutdan ancaq daxildən yenilənmə və canlanma qurtara bilərdi*" [6, s. 86]. Buna görə də, I İraklinin hakimiyyətini çətın sınaqlar gözləyirdi [9, s. 268].

Hakimiyyətinin ilk illərində ölkəni sakitləşdirməyə çalışan I İrakli xalqa bəzi güzəştlərə getməli oldu. Misiri üç illik vergilərdən azad etdi. Terror və repressiyaları sonlandırdı. Bizans dövləti daxili çətinliklə yanaşı xarici təhlükə ilə də üzləşmişdi. 602-ci ildə imperator olan Foka o dövrün beynəlxalq ənənələrinə əsasən öz elçiləri vasitəsilə II Xosrovu bu barədə məlumatlandırmalı idi

[16, s. 178]. Foka bunu bir qədər gecikmə ilə hakimiyyət dəyişikliyi barəsində rəsmi məlumatı çatdırmaq üçün 603-cü ilin yayında etdi. Tarixçi N.Piqulevskaya öz əsərində belə qeyd edirdi ki, Foka Mavrikinin edamında birbaşa əli olan Liliyanı elçi kimi Ktesefona (Şərq mənbələrində Mədain adlanır) göndərməsi bir növ II Xosrova meydan oxuması demək idi. Bundan isə şah istifadə etmiş oldu [16, s. 178]. II Xosrov matəm elan edərək, elçiləri qəbul etmədi və Fokadan Mavrikinin intiqamını alacağını elan etdi. 606-cı ildə şah Bizans dövlətinə müharibə elan etdi. Sasanilər 609-cu ilədək Mesopotamiyanın fəthini başa çatdırdı.

610-cu ildə Sasani ordusunun bir hissəsi Fərat çayını keçərək Kiçik Asiyanın əyalətlərini, digər hissəsi isə Suriyanı işğal etmək üçün hərəkətə keçdi. Bu hadisə Konstantinopolda saray çevrilişi ilə üst-üstə düşdü. 610-ci ilin noyabr ayında Fokanın qardaşı Komentiolun uğursuzluqla nəticələnən qiyamı, 611-ci ildə imperiyanın şərq sərhədlərinə Sasanilərin uğurlu hücumuna zəmin yaratdı [5, s. 56].

İmperator I İrakli hakimiyyətə gələndə xarici siyasətdə gördüyü ilk tədbir hər iki işğalçı ilə barışığa nail olmağa çalışması oldu. Xüsusən, Sasanilərlə bağlanacaq sülh, imperiyanın özünə gəlməsi üçün vaxt qazanması baxımından əhəmiyyət kəsb edirdi. VII əsr erməni tarixçisi Sebeosun verdiyi məlumata əsasən, I İrakli şahənşaha hədiyyələr göndərdi. Lakin II Xosrov İraklinin saxtakar olduğunu, Mavrikinin oğlu Feodosini taxta çıxardığını bəhanə edərək elçiləri edam etdirdi [26, s. 66; 12, s. 167; 16, s. 198]. Bu barədə 1234-cu il Anonim Suriya salnaməsi də məlumat verir, "*hökmdar taxtına oturan İrakli səfirlərini Xosrovdan sülh istəməsi üçün onun yanına göndərdi. Lakin Xosrov sülhə razı olmadı və hətta romeyləri (bizanslıları) təhdid də etdi*" [17, s. 652].

611-ci ildə Sasani ordusu Suriyanı, 613-də Dəməşqi tutdu. Bizans üçün strateji əhəmiyyəti olan bu bölgəni təkrar geri almaq istəyən I İrakli Antioxiyaya (indiki Antakiya) doğru hərəkət etdi. İmperatorun ordunun başında şəxsən səfərə çıxması ən son imperator Feodosinin (347-395) zamanında görülmüşdü. I İrakliyə bu hərəkətin imperatora uyğun olmadığı bildirilsədə, bu xəbərdarlığa məhəl qoymadan döyüş meydanını idarə etmişdi [22, s. 68]. Əslində İraklinin birbaşa ordunun başına özünün keçməsinə səbəb hərbi komandir heyətində kadr çatışmazlığı idi. Mavriki dövrünün təcrübəli hərbi sərkərdələri Foka tərəfindən hərbi idarə etmədən uzaqlaşdırılmışdılar [22, s. 75]. Kilikyanın şimalına geri çəkilən İrakli bu bölgəni Sasanilərə buraxmaq məcburiyyətində qaldı [28, s. 451-452]. Bu Sasanilərin hər yerdə sürətlə irəliləməsinə səbəb oldu.

614-də Qüds Sasanilər tərəfindən işğal edildi. Bu xristian dünyasını himayədarı olan Bizans üçün qorxunc bir hadisə idi. Şəhərin talan edilərək müqəddəs əmanətlərin Ktesifon şəhərinə aparılması mənəvi baxımdan da Bizansa sarsıdıcı zərbə vurdu. Bizansşünas, tarixçi F.Uspenski Qüdsün çöküşünü o dövrün yəhudi məsələsi ilə bağlı olduğunu qeyd edir. Belə ki, onun zənnincə, Fokanın hakimiyyəti illərində imperiyadan yəhudilərin qovulması, I İraklini dövründə də davam etmişdir. Sasanilərin Suriya və Fələstindəki hərbi uğurları yəhudilərin işğalçıların timsalında özlərinə dayaq və qoruma axtarmağa vadar edirdi [19, s. 679-680]. Uspenskinin bu iddiasını 1234-cü il anonim Suriya xronikasında təsdiq edir. "*Onlar (Sasanilər nəzərdə tutulur) 90 min xristian öldürdülər. Yəhudilər də öz düşmənçiliklərindən onları öldürürdülər*" [17, s. 652].

Tarixçi A.Vasiliyev isə öz növbəsində Suriya və Fələstinin asanlıqla ələ keçirilməsini və burada yaşayan əhalinin Sasani ordusuna müqavimət göstərməməsi səbəbini buranın əhalisinin böyük əksəriyyətinin monofizit (İsa peyğəmbərin yalnız bir Tanrı təbiətinin olduğunu və onda insan təbiətinin olmadığını iddia edən xristian təriqəti) olması ilə izah edir. I Yustinianın xələfləri olan hökmdarların imperiya daxilində yaşayan monofizitlərin sıxışdırılması siyasətini yürütdüklərini, məhz bu səbəbdən oda sitayiş edən Sasanilərin hökmranlığını qəbul etdiklərini qeyd edir [9, s. 269].

Sasani istilası Suriya və Fələstinlə kifayətlənmədi. 615-ci ildə Sasani ordusu sərkərdə Şahinin başçılığı altında Xalkedona (indiki Kadıköy) qədər gəlib paytaxta hücum etməsələr də, 617-ci ildə dəniz yolu vasitəsilə Kipri işğal etdi [28, s. 452]. 619-cu ildə Misirin tutulması Bizans dövlətinə iqtisadi cəhətdən ağır zərbə vurdu. Belə ki, Misir Konstantinopolu taxılla təmin edirdi. Bizansın və-

ziyyəti acınacaqlı idi. Onun Asiyada olan zəngin şəhərlərinin hamısı sülh bağlamaqdan imtina edən Sasanilər tərəfindən tutulmuşdu. Lakin Sasani dövlətinin də gücü müharibələrlə tükənmişdi [18, s. 69].

Bizans dövləti şərqdə və cənubda Sasanilərə ağır məğlubiyyətə uğradıqları bir zamanda, Balkan yarımadasında da təhlükə ilə üzləşmişdi. 617-ci ildə avar – slavyan birləşmələri xaqanın başçılığı ilə Konstantinopol üzərinə yürüş etdilər. Bu dəfə avarlar çoxlu qənimət və hərbi əsirlərlə kifayətlənərək geri çəkildilər [9, s. 269].

Bütün bu çətinliklərə baxmayaraq, I İrakli hərbi yürüşə qərara verdi. O, yürüşə strateji traktatları öyrənməklə və hərbi təlimlər keçirməklə uzun müddətə hazırlaşdı [18, s. 69]. I İrakliyə xarici düşmənə qarşı mübarizə aparmaqda din xadimlərinin də böyük rolu vardı. Qüdsün işğal edilib dağıdılması kilsə xadimlərinin də bu mübarizəyə qoşulmağa vadar etmişdi. Dövlət xəzinəsinin boşalmasını nəzərə alaraq, I İrakli kilsənin paytaxtdakı xəzinəsindən istifadə etməyə başladı. Çoxlu sayda qızıl və gümüş pullar kəsdirdi. Şimaldan, avarlar tərəfindən olan təhlükəni 620-ci ildə böyük miqdarda pul və saray nümayəndələrindən ibarət girov verməklə aradan qaldırdı [21, s. 160]. Bunun sayəsində I İrakli Sasanilərlə bağlı siyasətini həyata keçirmək imkanı qazandı. 622-ci ilin yazında I İrakli Kiçik Asiyaya yola düşdü. Orada bir necə ay müddətində ordu toplamaq və ona hərbi təlim keçməklə məşğul oldu. 622-ci ilin payızında Bizans ordusu imperatorun başçılığı ilə Şəhrivarazın komandanlıq etdiyi Sasani ordusuna qarşı hücuma keçdi və onu məğlubiyyətə uğratdı. I İraklinin bu qalibiyyəti ilə Sasani ordusu Kappadokiyadan və Pontdan çıxmış oldu.

I **İraklinin Azərbaycana hərbi yürüşü.** 623-cü il aprel ayının əvvəlində I İrakli Dvin (Dəbil) və Naxçıvan şəhərlərini tutaraq, iyun ayında Araz çayını keçərək Cənubu Azərbaycana hücum etdi. Ümumiyyətlə, VII əsrdə Bizans-Sasani müharibəsi zamanı Naxçıvan ya Sasani, ya da Bizans qoşunlarının hücumlarına məruz qalmışdır [1, s. 85; 3, s. 51; 15, s. 362]. Belə ki, Sebeos imperator İraklinin 120 minlik ordusu ilə hücum edərək, Dəbil və Naxçıvan şəhərlərini dağıdılması barədə yazır [25, s. 81].

II Xosrov I İraklinin onunla müharibəyə başlayacağına cürət edə biləcəyinə nəzərə almadığı üçün İraklinin cənuba doğru hərəkəti maneəyə rast gəlmədi. Sasani hökmdarlarının baharı Midiyada keçirdikləri barəsində məlumatı olan I İrakli, Sebeosunda verdiyi məlumata əsasən Atrpatakanda yerləşən Gandzak şəhərinə (qədim yunan mənbələrində Qazaka. Urmiya gölünün cənub şərqində yerləşir. Hal-hazırda şəhərin xarabalıqları Təxti-Süleyman adlanır) hücum etdi və *"böyük od məbədi olan Vşnaspı dağıtdı"* [25, s. 8]. I İraklinin hücum etmə xəbərini eşidən II Xosrov öz ailəsi ilə birlikdə buranı tərk etmək məcburiyyətində qaldı. M.Kalankatuklu I İraklinin II Xosrovun qaçdıqdan sonra onu təqib etməyib Atrpatakan ölkəsinə hücum edərək Sasani şahlarının özlərinə yay iqamətgahı kimi seçdikləri Qaysavan adlı yerə daxil olaraq oranı talan edib dağıtdığını qeyd edir [26, s. 79]. Görünən budur ki, bu hücum Sasanilər üçün tamamilə gözlənilməz idi. Belə ki, II Xosrov ölkənin şimalında kifayət qədər hərbi qüvvə olmadığı üçün ordunu qərbdən və cənubdan geri çağırmağa məcbur oldu [12, s. 177]. II Xosrovu təqib edərək çoxlu sayda şəhərlər və qənimətlər ələ keçirən Bizans ordusunun hərbi fəaliyyətini qışın gəlişi dayandırdı. Ordu sıralarında II Xosrovun təqib olunmasının davam etdirilməsini təkid edənlərin olmasına baxmayaraq, I İrakli Xəzər dənizi sahillərində qışlamaq üçün hərbi düşərgə qurmaq qərarına gəldi. F.Uspenski I İraklinin bu qərarını taktiki hesab edir, bununla onun ordunu qida ehtiyatı ilə təmin etmiş olduğunu qeyd edir. Həmçinin o, Feofanın verdiyi məlumata əsasən İraklinin 50 minlik əsiri azad etməsinin məqsədini yerli əhalinin rəğbətini qazanmaq istəməsi ilə yanaşı, bu tədbirin həyata keçirmə səbəbini qışda əsirləri saxlamaq üçün böyük vəsait tələb etməsi ilə izah edir [19, s. 687]. Beləliklə, Feofanın və M.Kalankatuklunun da verdiyi məlumata əsasən, Bizans ordusu qışı Albaniyada keçirməli oldu [24, s. 16-17; 26, s. 80-81].

I İrakli Qafqazda özünə qarşı təhlükənin qarşısını almaq üçün Qafqazın yerli hakimləri ilə danışıqlara başladı. Yerli hakimlərə göndərdiyi məktubda ona tabe olmalarını, qış boyu onun özünə və ordusuna xidmət etmələrini tələb edirdi: *"Əks halda onları bütpərəst hesab edib ordusuna bu ölkələrin qalalarını alıb torpaqlarını viran etmə əmrini verəcəyi ilə hədələyirdi"*[26, s. 80]. I İraklinin

Albaniyada yerli xristian hakimləri ilə ittifaq yaratmaq cəhdi baş tutmadı. Buna səbəb isə Bizans ordusunun tutduğu ərazilərdə talanla məşğul olması idi.

I İrakli Bərdə şəhəri üzərinə hücum etdi. Bunu eşidən II Xosrov Bərdə şəhərinin sahib və əyanlarına oranı tərk etməsi əmrini verdi. Bərdəni tutan Bizans ordusu şəhəri talan etdi. M.Kalankatuklunun verdiyi məlumata əsasən, Bizans ordusu əvvəlcə Kalankatuklu kəndində, sonra isə Tərtər çayı sahilində Divtakan kəndi yanında düşərgə saldılar [26, s. 81]. Sasani dövləti Bizans ordusuna qarşı Şəhrivaraz, Şəhriplakan və Şahinin komandanlığı altında üç ordu göndərdi [12, s. 177]. Onların vəzifəsi Qafqaz dağlarına I İraklini həbs etmək və yenidən Sasani dövlətinin hüdudlarına buraxmamaq idi.

Baharın gəlməsi ilə hər iki dövlətin ordusu hərəkətə keçdi. Bizans tarixçisi Feofan imperatorun hərbi taktikasını bu cür təsvir edirdi, "*cəld Sasani ordusu çətin torpaqlarda dolaşarkən atlarını yorduğunu bilək qardaşlarım. Bizə gəlincə, Xosrova qarşı sürətlə irəliləyək ki, gözlənilməz anda üzərlərinə hücum edərək onları çaş-baş salaq*" [24, s. 128]. Buna bənzər məlumatı Musa Kalankatuklu da öz əsərində verir, "*İrakli onun ölkəsini və şəhərlərini alan və onları itaətdə saxlayan Pers (Sasani) qoşunlarına hücum etmir, onların yanından keçmir, döyüşə təhrik etmirdi. Onları öz ölkəsinə buraxıb, ordusuyla dənizi keçir və yolunu Egerlərin torpaqlarından salaraq, Araz çayını keçdi və Böyük Xosrov şahın üzərinə qəfildən hücum etmək istədi*" [26, s. 79].

Həqiqətən çətin dağ yolları Şəhrivarazın komandanlıq etdiyi atlıları yormuşdu. Sasani sərkərdələrinin Bizans ordusunu mühasirəyə salmaq niyyətini I İraklinin qəfil ona yaxın coğrafi mövqedə yerləşən Şahinin ordusuna, indiki Ağdam yaxınlığında hücum edərək dağıtması pozdu. Bu qələbə I İraklinin vəziyyətini yaxşılaşdırmadı. Şahin və Şəhrivaraz öz qüvvələrini Bizans ordusuna qarşı birləşdirdikdən sonra I İraklinin laz və abxaz hakimlərindən olan müttəfiqləri ordu sıralarını tərk etdilər. I İraklinin özü isə Feofanın verdiyi məlumata əsasən hunların yaşadıqları, Qafqazın dağlıq ərazilərinə yola düşdü [20, s. 58; 24, s. 19]. Hunların torpaqlarından I İrakli bu ərazilərdən zərər çəkmədən geri qayıtdı və ordusunun əsas hissəni qoruyub saxlaya bildi. Bu ordunun əsasında yenidən ordu toplayaraq daha sonralar ən yaxşı sərkərdələrinin başçılıq etdiyi üç Sasani ordusunu darmadağın etdi [14, s. 88]. Buradan aydın olur ki, bu hunlar İrakliyə qarşı düşmən münasibətdə deyildilər və çox güman ki, onun müttəfiqi olmuşdular. Bu ehtimalı sonralar Əl-Məsudi də təsdiq edir. O, I İraklinin Şimali Qafqaz və Xəzər dənizi sahillərində müttəfiqləri arasında alan, xəzər və əs-Sərir tayfa birliklərinin adını sadalayır [11, s. 83].

Yay ayları boyunca manevrlər edərək Sasani ordusu ilə birbaşa döyüşə girməyən I İrakli qışda Qərbə, Şəhrivarazın yerləşdiyi yerə doğru gedir. Şəhrivaraz Van gölü ətrafında, Ərcişdə düşərgə qurmuşdu [25, s. 82]. O, pusqu quraraq qəfil Bizans ordusunun üzərinə hücum etmək istəyirdi. Lakin casuslar vasitə ilə bundan xəbərdar olan I İrakli gecə Sasanilər üzərinə hücum edərək onları şəhərə həbs etmiş və şəhəri atəşə vermişdi. Sasani ordusu şəhərdə yanıb kül olarkən ancaq Şəhrivaraz qaçıb xilas ola bilmişdi [24, s. 17-19].

625-ci ilin mart ayında I İrakli Mesopotamiyada itirdikləri torpaqları geri qaytarmaq üçün hərbi yürüşə başlayır. Lakin, Sasani ordusunu təzyiqi qarşısında Qara dənizin cənub sahilinə doğru geri çəkilməyə məcbur qalmışdı. I İraklinin bu yürüşü strateji dönüş nöqtəsi olmadı. Belə ki, Sasani ordusu imperiyanın paytaxtını əvvəlki kimi təhdid edirdi. 625/626-ci illərdə Xosrov Pərvizin ordusu Bosforun Asiya hissəsini yenidən yiyələndi. Şəhrivaraz bu barədə Avar xaqanını məlumatlandıraraq yenidən birlikdə Konstantinopola hücum etməyi təklif etdi. Xaqan I İrakli ilə olan razılaşmanı pozaraq 626-ci ilin yayında paytaxtı ona tabe olan slavyanlarla birlikdə mühasirəyə aldı [12, s. 178].

626-cı ildə avqustun 7-də Avarlar Konstantinopola hücum etdilər. Böyük itki verən xaqan mühasirəni qaldırıb imperiyanı tərk etdi. Bir qədər sonra I İraklini qardaşı Feodor öz ordusu ilə Bosforun Asiya hissəsini Sasanilərdən təmizlədi.

**I İrakli və Türk Xaqanlığının Sasani dövlətinə qarşı hərbi ittifaqı.** Qara dəniz bölgəsində olan imperator I İrakli Sasani-Avar ittifaqına qarşı özünə yeni bir müttəfiq olaraq Xəzər türklərinə

müraciət etdi. VII əsrin 20-30-cu illərində Sasani-Bizans müharibəsində xəzərlər mühüm rol oynadılar. Onlar gah müstəqil şəkildə, gah da I İraklinin müttəfiqi kimi Cənubi Qafqaza bir neçə yürüş etdilər [2, s. 111]. G.Ostroqorskinin də qeyd etdiyi kimi məhz bu zamandan etibarən, Bizansın Şərq siyasətinin ana sütunlarından olan Bizans-Xəzər ittifaqının tarixi başladı [6, s. 95]. Tarixçi F.Uspenski də I İraklinin gördüyü ən mühüm tədbirlərdən birini, cənub-şərqi Avropada böyük rol oynayacaq türk tayfaları olan xəzərlərlə danışıqlara başlaması olduğunu hesab edir. Onun zənnincə, xəzərlərlə ittifaq İrakliyə Sasani dövləti üzərinə hərbi yürüşdə ordu qüvvələrinin sayını artırmaq imkanı verdi [19, s. 698]. Feofan öz əsərində bu hadisəni belə təsvir edir, «*Sarvar (Şəhrivaraz) Konstantinopol əleyhinə Avar adlanan Qərbi hunları, sklavinlər (slavyanlar nəzərdə tutulur) və qepidləri (qotlara qohum şərqi alman xalqıdır) özünə birləşdirmək üçün göndərdi ki, onlarla birlikdə Konstantinopolun mühasirəsinə getsinlər. Bu barədə xəbərdar olan hökmdar öz ordusunu üç hissəyə böldü; ordunun bir hissəsini şəhəri müdafiə etməyə, ikinci hissəni qardaşı Feodara Sainə (Şahin) qarşı döyüşməyə, üçüncü hissə ilə özü lazların yanına getdi və orda xəzərlər adlanan Şərqi türkləri özünə müttəfiq kimi dəvət etdi* [24, s. 22]. Patriarx Nikifor isə bu hadisəni öz əsərində daha ətraflı təsvir edir: "*İrakli Lazikadan türklərin hökmdarına hədiyyələr göndərərək onu perslərə qarşı ittifaqa çağırdı"*. O, I İraklinin xaqan Ziebelə qızını vermək surətiylə onlarla ittifaq yarada bildiyini qeyd edir. O, bunu I İraklinin türklərin avarlar kimi sonradan xəyanət edəcəyindən ehtiyatlanmaşından irəli gələrək etməsi ilə izah edir. Bu görüşdən sonra patriarx Nikifor imperatorun türklərlə birlikdə Sasani dövlətinin üzərinə hücum etdikləri haqqında məlumat verir, *"onlarla birgə İrakli Persiyaya hücum edərək şəhərləri və od məbədini dağıdır"* [21, s. 160-161]. Nikiforun və Feofanın verdiyi bu məlumatı, 1234-cü il Suriya salnaməsi də təsdiq edir: "*İrakli Xəzər xaqanının yanına elçi göndərdi. O, isə Kaspi torpaqlarından ona (İrakliyə) köməyə 40 minlik ordu göndərdi. İrakli xaqana öz qızı Evdokiyanı ərə verəcəyinə söz verdi*" [17, s. 657].

Feofan Bizansla türklərin 626-ci ildə ittifaq bağlayandan sonra Ziebelin ordusunun hücuma keçdiyini belə təsvir edir: "*Kaspi qapılarını aşan xəzərlər xaqandan sonra ikinci şəxs olan Ziebilin rəhbərliyi altında Aderbagea (Azərbaycan) ölkəsinə hücum etdilər. Hökmdar lazların ölkəsini tərk edib Tiflisdə ona qoşuldu"*[24, s. 21-22]. M. Kalankatuklu öz əsərində Ziebeli Cebu xaqan adlandırır, "*Cebu xaqan öz oğlu ilə gəldi və onun ordusunun sayını heç kimsə deyə bilməzdi"* [26, s 83]. Başqa bir yerdə isə Cebu xaqanı Şimal hökmdarının xələfi, ikinci adamı adlandırır [26, s. 87]. Cebu xaqan (yabqu xaqan) – bu bir çox mənbələrdən məlum olan birinci Türk Xaqanlığının qərb ərazilərinin hakiminin tituludur. Əvvəldən statusuna görə Şərq əyalətlərinin xaqanından sonra ikinci şəxsdir [13, s. 97]. Məhz buna görə də, bir çox tədqiqatçılar Ziebeli Cebu xaqanı ilə eyniləşdirirlər [20, s. 100-102]. İmperator I İraklini Qafqaza hücumu ilə əlaqədar xatırlanan yabqu-xaqan, Ton Yabqu-xaqanın hakimiyyət illəri (618-630) ilə üst-üst düşür. Məhz, onun dövründə Qərbi Türk Xaqanlığına nominal tabe olan ərazilərdə tam ciddi siyasi nəzarət yaradılmışdı. Çin mənbələrində təsvir olunan Ton yabqu xaqanın ölümə səbəbi ilə (hökmdarın despotluğundan narazı olan tayfa başçılarının qiyamı nəticəsində öz əmisi tərəfindən həlak edilmişdi) M.Kalankatuklunun Cebu xaqanının ölum səbəbi haqqında verdiyi məlumatlar üst-üstə düşür [8, s. 284]. Sovet tarixçiləri M.Artamanov və L.Qumilyov, onun ardınca müasir Rusiya türkoloqları bir mənalı şəkildə bunun Qərbi Türk Xaqanlığı olmasını iddia edirlər [7, s. 204-206; 10, s. 157-159; 13, s. 102].

627-ci ildə Xəzər-Bizans ordu birlikləri Tiflisi mühasirəyə aldılar [26, s. 86]. Lakin Tiflisi müdafiə edən Sasani hərbi dəstələri hücumun qarşısını ala bildi. Şəhəri iki aylıq mühasirədə saxladıqdan sonra müttəfiqlər I İraklinin məsləhəti ilə geri çəkildilər. Tiflis ikinci mühasirədən sonra 628-ci ilin sonlarında işğal edildi. Bundan sonra Bizans bütün Mərkəzi Qafqazı özünə tabe etdi [15, s. 364].

Albaniyada hakim olan Sasani mərzbanı, Girdman knyazı Varaz Qriqor özünü I İraklinin vassalı elan edir. Lakin beynəlxalq aləmdə baş verən dəyişikliklər II Xosrovun öldürülməsi və onun yerinə hakimiyyətə gələn II Qubadın I İrakli ilə 628/629-cu ildə sülh bağlaması ilə Albaniya yenidən Sasanilərin təsir dairəsinə düşür. 629-ci ildə xəzərlərin rəhbəri Şadın Albaniyaya hücumu ilə

Sasani mərzbanı Albaniyadan qaçır. Xəzərlərə qarşı mübarizə aparmaq əzmində olmayan alban zadəganları katolikos Vironun rəhbərliyi ilə xəzərlərin siyasi hakimiyyətini qəbul edirlər [15, s. 365].

**Sasani dövlətinin məğlubiyyəti və Xosrov şahın hakimiyyətdən salınması**. Feofanın məlumatına əsasən, 627-ci ilin payızında I İrakli qırx min Xəzər ordusu ilə birlikdə yenidən Mesopotamiyaya yürüş etdi [12, s. 178; 24, s. 22-23]. Bizans ordusu dekabrın 12-də qədim Assuriyanın paytaxtı olan Nineviya şəhəri xarabalıqları yaxınlığında Sasaniləri həlledici məğlubiyyətə uğratdılar. Daha sonra Sasani imperiyasının mərkəzi vilayətlərinə hücum etdilər. 628-ci il yanvarın 7-də imperator Sasani imperiyasının paytaxtı Ktesifona yürüş etdi. Lakin, paytaxt yaxınlığında Sasanilər onu dayandıra bildilər. I İrakli şimala, Azərbaycana tərəf geri çəkildi. Sebeos I İraklinin Atrapatakana (Azərbaycan) çəkilmə səbəbini Şəhrivarazdan qorxması ilə izah edir. Çünki, II Xosrov onu köməyə çağırmışdı. Daha sonra Sebeos hadisəni belə təsvir edir, "*lakin Xorem (burada Sebeos Şəhrivarazı nəzərdə tutur) Xosrovun köməyinə gəlmədi, olduğu yerdə – Qərb ölkəsində qaldı*" [25, s. 84]. Bu barədə patriarx Nikifor da məlumat verir. I İraklinin türklərlə ittifaq bağladığı barədə xəbərdar olan II Xosrov Şəhrivaraza geri qayıtmasını əmr edir. Lakin, bu məktubu ələ keçirən I İrakli məktubun mətnini dəyişərək Şəhrivaraza yenisini göndərir: *"Romeylərin kesarı (Bizans imperatorun) türklərlə ittifaq bağlayaraq Adorbadigan (Azərbaycan) adlı yerə çatdı. Onlara qarşı ordu göndərdim, İraklini və türkləri məhv etdim. Ona görə də, romeylərin torpaqlarından geri çəkilmə, Xalkidonun mühasirəsini davam etdir!"* [21, s. 160-161]. II Xosrovun Şəhrivarazı Xalkidondan geri çağırması haqqında məlumatı Feofan da verir. Şəhrivarazın bizanslılara satılması barəsində böhtana inanan II Xosrov onu öldürüb ordunu da götürüb gətirməsi üçün Kardariq adlı şəxsi göndərir. Lakin Kardariq bizanslılar tərəfindən ələ keçirilir və bu barədə Şəhrivaraza məlumat verilir: "*Sarvaraz məktubu oxuyaraq bunun həqiqət olduğuna inandı. İmperator və patriarxla sülh bağladı"* [24, s. 27].

Göstərilin mənbələrdən aydın olur ki, I İrakli ən çox çəkindiyi sərkərdə Şəhrivarazı öz tərəfinə çəkməyə müyəssər olmuşdu. II Xosrovun qüdrətli avtoriteti sarsılmışdı. Ağır müharibələr çox saylı insan resursları tələb edirdi. Şah ordusu məğlub olmağa başladığı andan etibarən ölkə iqtisadiyyatı zəifləməyə başladı. Müharibələrdə əldə olunan qələbələr zamanı hərbi qənimətlərin çox olması ölkə daxilində iqtisadiyyatın iflasa uğramasını hiss etdirmirdi. Bu qənimətlər azalan kimi hər şey aşkara çıxırdı. Xəzinənin gəlirini azaltmamaq üçün əhali üzərinə qoyulan vergilərin çoxaldılması isə əhali arasında böyük narazılığa səbəb olurdu.

Arda-arda məğlubiyyətlər II Xosrovu yüksək hərbi və dövlət məmurlarını repressiya etməyə təhrik etmişdi. Öz qohumlarını xilas etməyə çalışan saray əyanları II Xosrova qarşı qiyam etdilər. Bu qiyama II Xosrovun böyük oğlu Qubad-Şiruyə başçılıq edirdi. Onun I İrakli ilə gizlin əlaqə saxlaması və qiyama hazırlıq haqqında məlumatı Feofan və Musa Kalankatuklu öz əsərlərində ətraflı məlumat verirlər. Qiyama hakimiyyətdən narazı olan şəhər əhalisi də qoşuldu. Nəticədə hərbi komandirlərin də dəstəyi ilə Qubad atası Xosrov Pərvizi taxtdan devirərək 29 fevral 628-ci ildə edam etdi [12, s. 180; 26, s. 90-91; 27, s. 182-188].

II Qubad öz elçisini Azərbaycanda olan İraklinin yanına barışıq üçün göndərdi. Bu hadisə haqqında ətraflı məlumatı VII əsr Pasxal salnaməsi də (Chronicon Pachale) verir. I İraklinin şərtlərinə əsasən sülh müqaviləsi imzalandı. İmperator Mavriki dövründəki torpaq sərhədləri geri qaytarıldı. Müqaviləyə əsasən Mesopotamiya, Suriya, Fələstin, eləcə də Qüdsün Sasanilər tərəfindən işğalı zamanı ələ keçirilmiş müqəddəs əmanətlər də geri qaytarıldı [23, s. 21; 17, s. 658; 27, s. 182-187].

G.Ostroqorskinin də qeyd etdiyi kimi, qüdrəti önündə bir zamanlar titrəyən Bizansın hər iki düşməni yerə sərilmişdi. Nineviya yaxınlığında döyüş necə Sasani dövlətini qüdrətini təməlinədək çökdürmüşdüsə, Konstantinopol yaxınlığındakı döyüş də Avarların qüdrətini sarsıtmışdı [6, s. 98].

**Nəticə.** Məqalədə aşağıdakı elmi nəticəyə gəlinmişdir. Birinci, imperator I İraklinin bütün siyasi və hərbi səyləri nəticəsində imperiyanın Şərqdəki nüfuzu yenidən bərpa olunmuşdur. Nəticəyə gəlinmişdir ki, imperator I İraklinin apardığı uğurlu hərbi səfəri nəticəsində Bizans imperiyasının

Sasani imperiyası tərəfindən işğal edilən torpaqları nəinki, geri qaytarılmış, eləcə də onun xristian dünyasında nüfuzu xeyli dərəcədə artmışdı.

İkincisi, I İrakli Bizans imperiyasının özünə qədər heç bir imperatorunun etmədiyi bir hərbi taktikaya əl atmış, Azərbaycan üzərindən Sasani dövlətinə hücum etmişdir. Bu isə Sasani dövlət dairələri üçün gözlənilməz hal idi. Çünki, əsrlərdir davam edən Bizans-Sasani müharibələri dövründə Azərbaycan üzərində bu dərəcə geniş miqyaslı hərbi yürüşlər və döyüşlər olmamışdır. Bu isə Sasani dövləti üçün gözlənilməz olduğundan ona sarsıdıcı zərbə vurmuşdur.

Üçüncüsü, imperator İrakli Şimalı Qafqazda yaşayan türk xalqları və Qərbi Türk Xaqanlığı ilə yenidən diplomatik münasibətlər yaradaraq onların köməyi ilə ordusunun hərbi gücünü artırmış və Qafqazda güc sahibi olmuşdur. Nəticəyə gəlinmişdir ki, məhz I İraklinin səyi nəticəsində sonrakı illərdə Bizans-Xəzər Xaqanlığı ilə qarşılıqlı münasibətlərin əsası qoyulmuşdu.

Dördüncüsü, I İraklinin Sasani dövlətinə qarşı apardığı hərbi yürüş Sasani dövlətini dərindən sarsıtmışdır. Nəticəyə gəlinmişdir ki, I İraklinin döyüş meydanın da manevr etmək bacarığı ilə yanaşı, Sasani dövlətinə qarşı apardığı uğurlu siyasəti ilə Şərqdə Sasaniləri zəiflədərək daxili müharibələrə sürükləmişdi. Sasani sülaləsinin ayrı-ayrı nümayəndələri şahlıq uğrunda mübarizə aparmağa başlamış, ölkənin ayrı-ayrı vilayətləri faktiki olaraq, müstəqilləşmişdilər. Nəticədə, Sasani dövləti öz qüdrətini itirmişdi. Bu andan etibarən, Bizans dövlətinə təhlükə törətməməyə başlamışdır.

Beşincisi, bütün bunlara baxmayaraq, bu qələbə Bizans dövlətinə baha başa gəldi. İmperiyanın maliyyə vəziyyəti bərbad vəziyyətdə idi. Yeni təhlükə tamamilə gözlənilməyən istiqamətdən, Ərəb yarımadasından gəldi. Sasani imperiyası tarixin dərinliklərinə qarışarkən müsəlman ərəblər Bizansın yeni rəqibi oldular.

## ƏDƏBİYYAT

1. Azərbaycan tarixi / Məsul redaktor akademik N.Vəlixanlı. II c.: III-XIII əsrin I rübü, Bakı: Elm, 2007, 608 s.
2. Ağayev R. Ərəb xilafəti dövründə Azərbaycanın əhalisi. Bakı: AMEA, Tarix institutu, 341 s.
3. Bünyadov Z. Azərbaycan VII-IX əsrlərdə. Bakı: Şərq-Qərb, 2007, 422 s.
4. Diehl Ch. Bizans tarihi imperatorlugu tarihi / Çeviri A.Gökçe Bozkurt. İstanbul: İlgi kültür sanat yayıncılık Ltd. Şti, 2017, 165 s.
5. Kaegi W.E. İlk islam fetihleri / Türkcesi Mehmet Özay. İstanbul: Kaknüs yayınları, 2000, 423 s.
6. Ostrogorski G. Bizans Devleti Tarihi / Türkceye çeviren Fikret Işıltan. 9 Baskı, Ankara, 2017, 582 s.
7. Артамонов М. История Хазар. 2-е изд., Санкт- Петербург: Лань, 688 s.
8. Бичурин (Иакинф) Н. Собрание сведений о народах, обитавших в Средней Азии в древние времена. Т. I, Москва-Ленинград: Изд-во АН СССР, 1950, 382 s.
9. Васильев А. История Византийской империи. Время до Крестовых походов (до 1081). Санкт-Петербург: Алетейя, 1998, 490 s.
10. Гумилёв Л. Древние тюрки. Москва: Клышников, Комаров и К, 1993, 513 s.
11. Галкина Е. Ранние хазары и тюрки в ирано-византийских войнах конца VI-VII вв. // Вестник РУДН. Серия «Международные отношения», 2011, № 4, s. 80-88.
12. Дашков С. Цар царей – Сасаниды / Иран в легендах, исторических хрониках и современных исследованиях. Москва: СМИ-АЗИЯ, 2008, 352 s.
13. Кляшторный С., Султанов Т. Государства и народы Евразийских степей: Древность и средневековье. Санкт-Петербург: Петербургское востоковедение, 2004, 368 s.
14. Кулаковский Ю. История Византии: в 3-х тт. Т. III: 602-717 годы, Санкт-Петербург: Алетейя, 1996, 441 s.
15. Мамедова Ф. Кавказская Албания и албаны. Баку: Центр Исследований Кавказской Албании, 2005, 800 s.

16. Пигулевская Н. Византия и Иран на рубеже VI и VII веков. Москва-Ленинград: Изд.-во академии наук СССР, 1946, 289 с.
17. Пигулевская Н. Сирийская средневековая историография, исследования и переводы. Санкт-Петербург: Дмитрий Буланин, 2000, 760 s.
18. Пигулевская Н., Якубовский А. и др. История Ирана с древнейших времен до конца XVIII века. Ленинград: Изд.-во Ленинградского университета, 1958, 388 с.
19. Успенскій Ф. Исторія Византійской имперіи. Т. I, С.-Петербургъ: Брокгаузъ-Эфронъ, 1913, 872 s.
20. Чичуров И. О кавказком походе императора Ираклия / Восточная Европа в древности и средневековье. Москва: Наука, 1978, s. 100-102.
21. Чичуров И. Византийские исторические сочинения: «Хронография» Феофана, «Бреверия» - Никифора / Отв. ред. В.Пашуто / Серия: Древнейшие источники по истории народов СССР. Москва: Наука, 1980, 216 s.
22. Kaegi W. E. Heraclius, Emperor of Byzantium. Cambridge: Cambridge university press, 2003, 359 s.
23. Kirakos Gandzakets'i's. History of the Armenians / Translated from classical Armenian by Robert Bedrosian. New-York, 1986, 335 s.
24. The Chronicle of the Theophanes / An English translation of *anni mundi* 6095-6305 (A.D. 602-813) with introduction and notes by Harry Turtledove. Philadelphia: University of Pennsylvania press, 1982, 201 s.
25. The Armenian history attributed to Sebeos / Translated by R.W.Thomson. Liverpool: Liverpool university press, 1999, 357 s.
26. The history of the Caucasian Albanians by Movses Dasxuranci / Translated by C.J.F.Dowsett. V. VIII, London: Oxford University Press, New-York, Toronto, 1961, 252 s.
27. Chronicon Paschale 284-628 AD. V VII / Translated by Michael Whit by and Mary Whit by. Liverpool: LUP, 2007, 239 s.
28. Mitchell S. A history of the later Roman empire AD 284-641. Malden, MA: Blackwell Pub., 2015, 544 s.

***AMEA Tarix İnstitutu***
***E-mail: konul0506@mail.ru***

**Konul Allahverdi**

**EASTERN POLICY OF THE BYZANTINE EMPEROR HERACLIUS I**

Heraclius I, who came to power in 610, inherited the Byzantine Empire, which had collapsed from an economic and political point of view. To overcome all the difficulties that the state had encountered, Heraclius I made radical changes in the military and administrative system. His reforms and military campaigns allow us to study Byzantine and Armenian, as well as Albanian sources. Heraclius I resorted to military tactics that no emperor had resorted to before him. With his personal participation, he attacked the Sassanid state through the lands of Azerbaijan. Heraclius, who restored relations with the Western Turkic Empire, managed to defeat the Sassanid state, having received military assistance. The purpose of this article is to consider the attempts of Emperor Heraclius I to overcome the difficulties of the empire in the 7th century, his foreign policy and military campaigns. Here, using the example of Heraclius' military campaigns in Azerbaijan, the importance of these lands for Byzantium and the Turkic Khaganate is shown.

**Keywords:** *Emperor Heraclius I, Khosrow Perviz II, Azerbaijan, Western Turkic Khaganate.*

**Кёнуль Аллахверди**

## ВОСТОЧНАЯ ПОЛИТИКА ВИЗАНТИЙСКОГО ИМПЕРАТОРА ИРАКЛИЯ I

Ираклию I, пришедшему к власти в 610 году, досталась с экономической и политической точки зрения развалившаяся Византийская империя. Чтобы преодолеть все трудности, в которые попало государство, Ираклий I произвел радикальные изменения в военной и административной системе. Его реформы и военные походы позволяют изучать византийские и армянские, а также албанские источники. Ираклий I прибегнул к военной тактике, к которой ни один император до него не прибегал. При своем личном участии он напал на Сасанидское государство через земли Азербайджана. Ираклию, восстановившему отношения с Западно-Тюркской империей, удалось разгромить государство Сасанидов, получив военную помощь. Цель данной статьи – рассмотреть попытки императора Ираклия I преодолеть трудности империи в VII веке, его внешнеполитические и военные походы. Здесь на примере военных походов Ираклия в Азербайджан показано значение этих земель для Византии и Тюркского каганата.

**Ключевые слова:** *Император Ираклий I, Хосров Первиз II, Азербайджан, Западно-тюркский каганат.*

*(Akademik Nərgiz Axundova tərəfindən təqdim edilmişdir)*

**Daxilolma tarixi: İlkin variant 28.07.2025**
**Son variant 16.09.2025**